AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Tələbələrə təqaüdlərinin verilməsi qaydaları

# Normativ baza

- "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 30.08.2013-cü il tarixli 3108 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 2015-ci il tarixli 1516 nömrəli Sərəncamı
- "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Təqaüdlərin təyin olunması və ödənilməsi

- Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almasından asılı olmayaraq, ali və orta ixtisas təhsili müəssisələrinin əyani formada təhsil alan tələbələrinə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricisinə (bundan sonra - **ÜOMG**) görə verilir.
- Təqaüd siyahısına daxil olan tələbələrə təqaüdlər semestr üzrə (birinci tədris ilinin birinci semestri istisna olmaqla) imtahan sessiyasının nəticələrinə əsasən fənlər üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

- fənlər üzrə göstəriciləri 91-100 bal olan tələbələrə “əlaçı” təqaüdü;
- fənlər üzrə göstəriciləri 71-100 bal olan tələbələrə “həvəsləndirici” təqaüdü (bu halda ən azı bir fəndən akademik göstəricisi 91-100 olmalıdır.);
- fənlər üzrə göstəriciləri 51-100 bal olan tələbələrə “adi” təqaüd.

Misal

$$ÜOMG = \frac{b_1k_1^*+b_2k_2^*+b_3k_3^*+\dots+b_nk_n^*}{k_1+k_2+k_3+\dots+k_n}$$

$b_1, b_2, \dots, b_n$ - tələbənin fənlər üzrə yığdığı ballar
$k_1^*, k_2^*, \dots, k_n^*$ - fənlər üzrə qazanılmış kreditlər
$k_1, k_2, \dots, k_n$ - fənlərə tədris planında nəzərdə tutulan müvafiq kreditlər

| | Fənlər | Kredit | Tələbə 1 | Tələbə 2 | Tələbə 3 | Tələbə 4 |
|---|---|---|---|---|---|---|
| 1 | Mikroiqtisadiyyat | 7 | 91 | 61 | 97 | 53 |
| 2 | Riyaziyyat | 8 | 87 | 70 | 98 | 51 |
| 3 | İnformatika | 4 | 52 | 63 | 51 | 92 |
| 4 | Xarici dil | 5 | 93 | 64 | 99 | 65 |
| 5 | Azərbaycan tarixi | 6 | 97 | 62 | 97 | 51 |
| **Ümumi** | | **30** | **86,27** | **64,37** | **91,47** | **59,27** |